# 2025-ci il üzrə nəticələr

2025-ci il üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 10425 müraciət daxil olub.

**Bunlardan:**

Elektrik enerjisi təchizatı ilə bağlı 1477-si məlumat üçün olmaqla cəmi 8884 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 129-u məlumat üçün olmaqla cəmi 1130 müraciət;

İstilik təchizatı ilə bağlı 28-i məlumat üçün olmaqla cəmi 232 müraciət;

15-i məlumat üçün olmaqla 179 müraciət isə digər məsələlərlə bağlı olub.

**10425 müraciətdən:**

8174 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (147 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

35 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

567 müraciət hazırda baxılma prosesindədir;

1649 məlumat xarakterli müraciətdən 688-i qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 180 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

480 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 187 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib.

## İNZİBATİ XƏTA HAQQINDA İŞLƏRƏ BAXILMA

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin

müvafiq maddələri üzrə 668 inzibati xəta haqqında işə baxılıb, onlardan 657 iş üzrə inzibati tənbeh vermə haqqında qərar, 10 iş üzrə isə icraata xitam verilməsi barədə qərar qəbul olunub, 1 iş isə baxılması üçün məhkəməyə göndərilib.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 1055 nəzarət tədbiri keçirilib;

İstilik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və istilik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 62 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 822 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 288 müəssisədə 731 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.